# “Kiçik ölkəyə qısa müddətdə 250 milyard dollardan artıq investisiya...”

## *Pekindəki əcnəbi dostlarım bu ifadəni Azərbaycan haqqında tez-tez işlədirdilər*

**Bəri başdan deyim ki, bu sətirləri gənc müstəqil dövlətimizin gənclər, təhsil və xarici siyasətlərini əhatə edən üç hissəyə bölmək, üç müxtəlif yazı hazırlamaq olardı. Ancaq fikirləşdim ki, bir yazıda dövlətin üç istiqamətdə reallaşdırdığı siyasətin nəticələri barədə söz açmaq daha məqsədəuyğundur. Bu, həm də ona görə maraqlıdır ki, mən həmin siyasi istiqamətlərin hər üçünün müsbət nəticəsini bilavasitə öz taleyimdə görmüşəm.**

Əvvəla onu qeyd edim ki, Azərbaycan dövlətinin gənclər siyasəti təkcə işğal altında olan torpaqlarımızı düşmən tapdağından təmizləməyə qadir olan vətənpərvər əsgərlər yetişdirməkdən və ya çoxsaylı uğurlara imza atan peşəkar idmançılar hazırlamaqdan ibarət deyil. Bu siyasətin ən mühüm tərkib hissələrindən biri də ölkəmizi gələcəkdə idarə edə biləcək yüksək savadlı, intellektual səviyyəli gənc kadrlar ordusunu yaratmaqdan ibarətdir. Bunun üçün isə çoxsaylı məktəblər tikmək, yeni ali məktəblər yaratmaq, mövcud universitetlərdə daha müasir ixtisaslar açmaq kifayət deyil. Bunun üçün Azərbaycan gənclərinin xarici ali məktəblərdə təhsil almasına nail olmaq da lazımdır. Azərbaycan dövləti bütün bunları ən incə detallarına qədər götür-qoy edir və milli maraqlara uyğun addımlar atır.

Xatırladım ki, Dünya İqtisadi Forumunun “2017-2018-ci il üçün “Qlobal Rəqabətlilik Hesabatı”nda 140 ölkə arasında 69-cu yerdə qərarlaşan Azərbaycanın mövqeyi 12 indikatordan 9-u üzrə yaxşılaşıb. Təhsil indikatorları üzrə ciddi irəliləyişə nail olunması, Azərbaycanın göstəricilərinin dünyanın bir sıra inkişaf etmiş ölkələrinin göstəricilərindən də yüksək olması xüsusən əhəmiyyətlidir.

Fikrimcə, Azərbaycan dövlətinin bu istiqamətdə hansı işləri gördüyünü, nə qədər vəsait xərclədiyini söyləməyə ehtiyac yoxdur. Amma onu qeyd etmək vacibdir ki, Prezident İlham Əliyevin təhsilin inkişaf etdirilməsi məqsədilə imzaladığı çoxsaylı dövlət proqramları arasında xaricdə təhsil məsələsinə xüsusi önəm verilir. Mən də məhz dövlət səviyyəsində təhsil almaq üçün xaricə göndərilmiş gənclərdən biriyəm.

Mən 2016-2018-ci illərdə Çində magistr təhsili almaq üçün Azərbaycan Respublikası və Çin Xalq Respublikası hökumətləri arasında imzalanmış müqavilə əsasında təhsil nazirinin əmri ilə göndərilən 20 nəfərdən biri idim. Həmin ölkənin ən qədim ali məktəblərindən olan Beijinq (Pekin) Normal Universitetində dövlət idarəçiliyi üzrə magistr təhsili aldım. Səmimiyyətlə deyim ki, orada təhsil aldığım müddətdə Azərbaycan dövlətinin öz gənclərini təhsil almaq üçün niyə xaricə göndərdiyinin mahiyyətini daha aydın dərk etdim. Belə qənaətə gəldim ki, bu, təkcə siyasət deyil, həm də müdriklik və uzaqgörənlikdir.





Beijinq Normal Universiteti 1898-ci ildən fəaliyyət göstərən Paytaxt Müəllimlər Palatasının əsasında yaradılıb. 2002-ci ildə universitetin 100 illiyi şərəfinə 1996-cı ildə kəşf edilmiş asteroidə bu ali məktəbin adı verilib. Universitetdə çoxlu sayda institut, fakültə və məktəblər fəaliyyət göstərir. Məsələn, burada müasir dünyanın bütün ali məktəblərində olan ixtisasları öyrədən institutlarla yanaşı, Çin Dili və Ədəbiyyatı İnstitutu, onunla parallel olaraq Çin Dili və Mədəniyyəti İnstitutu da fəaliyyət göstərir ki, bu da həmin ölkədə xalqın dilinə, ədəbiyyatına və mədəniyyətinə olan münasibətindən xəbər verir. Eləcə də, universitetdə Marksizm İnstitutu adlı ayrıca qurum vardır. Tələbələr kimi müəllimlər də dünyanın, demək olar ki, hər yerindən gəliblər.

Tələbə yoldaşlarımdan Daniel Rudolf ABŞ-dan, Kristian Munyoz İspaniyadan, Joe Skalli Böyük Britaniyadan, Moses Ekpe Qanadan, Çai Lialo, Çen Qi,Guai Minq və Sun Yinqbao isə Çindən idi. Diplom rəhbərim, professor Piyer Mieja isə Fransadan idi. Dərslər, kurs işləri, diplom işləri və gündəlik ünsiyyət ingiliscə olsa da, Çin dilində danışmağı da öyrəndik.

Azərbaycan və Çin təhsil sistemləri arasında bəzi oxşarlıqlar olsa da, xeyli fərq də var. Onlardan bir neçəsini qeyd etmək istərdim. Məsələn, Azərbaycandakı ali məktəblərdə ixtisas yaradılarkən ölkənin xalq təsərrüfatında ehtiyac olan istiqamətlərə üstünlük verilir. Çindəki ali məktəblərdə isə bu prinsip dünya üçün nəzərdə tutulur. Hansı qitədə, ölkədə hansı ixtisasa daha çox ehtiyac varsa, o istiqamətdə işlər aparılır.

İkinci, bizim ali məktəblərimiz yüksək ixtisaslı mütəxəssislər hazırlamaqla yanaşı, Azərbaycançılıq məfkurəsini təbliğ və inkişaf etdirə biləcək intellektual səviyyəli gənclər, mükəmməl vətəndaş yetişdirməklə məşğuldur. Çində isə yerli məzunlar yüksək səviyyəli mütəxəssis olmaqla yanaşı, Kommunist Partiyasının siyasi xəttini dəstəkləyəcək kadr kimi, yəni ideoloji əsasda hazırlanırlar.

Başqa bir fakt, bu gün dünyada Avropa, Amerika və Asiya (Yaponiya, Malayziya və Hindistanın timsalında) təhsil sistemləri mövcuddur. Çindəki dostlarımız isə öz ali məktəblərini bu üç sistemin heç birinə qoşmayaraq, məhz Çin təhsil sistemi adlandırırlar. Bu da onların qədim mədəniyyətə, deməli, həm də qədim təhsil sisteminə malik olduqlarına görədir. Universitetlərin maddi-texniki bazası yüksək səviyyədə təchiz edilib, professor-müəllim heyətləri ən müasir tələblərə cavab verən kadrlar arasından seçilib.

Çində olduğum müddətdə yerli dostlarımın “Vanli Çançen” adlandırdığı, Sarı dənizin Lyodun körfəzinin sahillərindən başlayıb, Çinin şimal sərhədləri boyunca uzanan, ümumi uzunluğu 4250 kilometrdən çox olan Böyük Çin səddinə getmək şansı qazandım, bu ölkənin tarixi və Çin xalqının mədəniyyəti ilə bağlı çox şeylər öyrəndim.



Bundan başqa, Azərbaycanın Çindəki səfirliyinin müxtəlif bayramlarımız, ulu öndərin ad günləri, eləcə də 20 Yanvar faciəsi və Xocalı soyqırımının ildönümü münasibətilə keçirdiyi tədbirlərdə iştirak edərkən, digər ölkələrin Çindəki diplomatlarının Azərbaycana və Pekindəki səfirliyimizə nə qədər hörmət və ehtiramla yanaşdığının şahidi oldum. Həm səfirliyimizdə, həm də universitetdə keçirilən milli günlərimizdə Azərbaycan bayrağını gəzdirdiyim anlarda yaşadığım qürur və iftixarı isə heç zaman unuda bilmərəm.

Yeri gəlmişkən, Pekindəki diplomatlarımız məhz mənim xahişimlə universitetimizin bir qrup çinli tələbəsini – təbii ki, professorumuzun rəhbərliyi ilə -- səfirliyə dəvət etdilər və onlara Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verildi. Bu zaman bir məqamı da yada salmaq istərdim. Belə ki, bizim həmin tədbirimizin “Xalq qəzeti” kimi mötəbər mətbuat vasitəsində işıqlandırılması elmi rəhbərimiz və universitet məsulları tərəfindən yüksək qiymətləndirildi.

Mənim diplom işimin bir istiqaməti Çin hökumətinin və şirkətlərinin Azərbaycan iqtisadiyyatına yatırdığı investisiyalarla bağlı olduğuna görə Pekində bir neçə iqtisadçı professorlarla görüşməli olmuşdum. Onlar “Azərbaycan kimi kiçik bir ölkəyə qısa müddətdə 250 milyard dollardan artıq investisiya yatırılmasını” çox böyük uğur adlandırırdılar.

Bundan başqa, diplom müdafiəm ərəfəsində mənə kömək etməklə dövlətimizin təhsil və gənclər siyasətini dəstəkləyən bəzi qurumların və şəxslərin adını çəkməsəm, ədalətsizlik etmiş olaram. Dövlət Neft Şirkətinin (SOCAR) ekspertləri, ADA Universitetinin mütəxəssisləri, Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin (o zaman qurum belə adlanırdı) əməkdaşları, professor Fikrət Yusifov, iqtisad üzrə elmlər doktoru Vüqar Bayramov, QHT sədri İlham Şaban və digər soydaşlarımız diplom işimə aid olan sualları böyük səmimiyyətlə cavablandırdılar.

Dövlətin gənclər və təhsil siyasətinin əsas icraçılarından olan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə isə məni magistr təhsili almaq üçün dünyanın ən nüfuzlu ölkələrindən birinə göndərdiyinə görə təşəkkür edirəm.

***Sadiq QAÇAYEV,***
***Beijing Normal Universitetinin dövlət idarəçiliyi ixtisası üzrə magistri***